# BƏƏ, Azərbaycan, Braziliya: məqsəd bu "üçlük" arasında körpü salmaqdır

## Bunun təşəbbüskarı isə ölkəmizdir

**Sirr deyil ki, Azərbaycan bərpaolunan enerjiyə keçidə yönəlmiş innovativ yanaşmalar üzrə regionda liderə çevrilib və iqlim dəyişmələrinin təsirləri ilə mübarizəyə ciddi töhfə verərək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı üzərinə düşən vəzifəni ən yüksək səviyyədə yerinə yetirir. Deməl olar ki, qlobal tədbirin hazırlıq işləri başa çatmaq üzrədir.**

COP29 sədrliyi ilk günlərdən hazırladığı fəaliyyət proqramı üzrə hərəkət edir. COP28-in ev sahibi olmuş Birləşmiş Ərəb Əmirlikləri, COP29-un ev sahibi Azərbaycan və COP30-a evsahibliyi edəcək Braziliya arasında üçlüyün yaranması isə qlobal tədbirin vacib əhəmiyyətindən xəbər verir. "Missiya 1.5" kampaniyasını dəstəkləmək üçün COP28-in gedişatında yaradılan COP sədrlikləri üçlüyü Dubayda razılaşdırılmış BƏƏ Konsensusuna uyğun fəaliyyət göstərir. Məlumat üçün bildirək ki, BMT-nin İnkişaf Proqramı iqlim dəyişikliyi ilə mübarizə məqsədilə 2020-ci il fevralın 14-də "Missiya 1.5" kampaniyasına start verib. "Missiya 1.5" kampaniyasının məqsədi 20 milyon insana iqlim dəyişikliyinin məhdudlaşdırılması üçün müəyyən tədbirlərin görülməsi barədə mövqelərini hökumət rəhbərlərinə bildirməsinə imkan yaratmaqdır.

Qeyd edək ki, ötən il noyabrın 30-dan dekabrın 12-dək Dubayda keçirilən COP28 İqlim görüşünün təyin olunmuş prezidenti, ADNOC şirkətinin rəhbəri Sultan Əl-Caber sammit ərəfəsində dünya hökumətlərini 2030-cu ilədək bərpaolunan enerji mənbələrinin gücünü 3, 11000 qiqavatadək və 2030-cu ilə qədər hidrogen istehsalını 2 dəfə artırmağa çağırıb. Bundan başqa, sessiyada 20-yə yaxın ölkə, o cümlədən ABŞ və Birləşmiş Ərəb Əmirlikləri birgə bəyannamədə 2050-ci ilədək dünyada nüvə enerjisinin gücünü 2020-ci illə müqayisədə 3 dəfə artırmağa çağırıblar. Məqsəd indiki iqlim sammiti ilə eynidir: kömürdən və qazdan asılılığı azaltmaq. Məhz həmin ərəfədə COP30-a qədər 3 COP prezidenti arasında əməkdaşlıq yaratmaq üçün üçlüyün razılaşması əldə edilib.

Əslində, sözügedən üçlüyün təsis edilməsinin təşəbbüskarı Azərbaycan olub. Buna qədər belə bir mexanizm mövcud deyildi. Təqdirəlayiq haldır ki, təklif Birləşmiş Ərəb Əmirlikləri və Braziliya tərəfindən dəstəklənib. Çünki COP sadəcə, bir və ya iki həftə davam edən tədbir deyil. Bu, davamlı bir prosesdir və qarşıdakı illərdə də fəaliyyət göstərəcək. Əgər bir ölkə hər hansı miras qoymaq istəyirsə, bu, tutarlı və konkret töhfə olmalıdır. Sözlər, bəyanatlar kifayət deyil, real addımlar atılmalıdır və onlar koordinasiyalı həyata keçirilməlidir. Prezident İlham Əliyev iyun ayında Bakı Enerji Həftəsi çərçivəsində 29-cu "Caspian Oil&Gas" və 12-ci "Caspian Power" sərgilərinin açılışda çıxış edərkən üçlük haqqında fikirlərini belə bildirmişdir: "İqlim dəyişikliyi hər bir ölkə üçün çağırışdır. Biz proaktiv addımlar atdıq və hazırda tərəfdaşlarımızla birgə çalışırıq. Biz BƏƏ və növbəti COP-a evsahibliyi edəcək Braziliya ilə birlikdə "üçlük" təsis etmişik. Qoşulmama Hərəkatının keçmiş sədri qismində biz 120 ölkə ilə birlikdə bir təsisat və Avropa İttifaqı arasında körpülərin qurulmasına çalışırıq. Avropa İttifaqına 10 üzv dövlət ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında bəyannamə imzalanıb. Biz hazırda inkişafda olan kiçik ada dövlətləri ilə fəal işləyirik. Onların dəstəklənməsi məqsədilə xüsusi fondun yaradılmasını planlaşdırırıq". Dövlət başçısı bu fikirlərinin davamı olaraq II Qlobal Şuşa Forumunda belə demişdir: "Biz inkişafda olan kiçik ada ölkələri üçün fond yaratdıq. Ancaq biz inkişaf etməkdə olan hər bir ölkə ilə bağlı fond yarada bilmərik. Bizim o qədər pulumuz yoxdur. Əlbəttə, bu işdə həmrəylik olmalıdır və digərlərini təşviq etməliyik ki, bizim nümunənəmizə uyğun olaraq hərəkət etsinlər". Prezidentin söylədiklərindən çıxış edib deyə bilərik ki, Azərbaycanın məqsədi COP29-un məhz həmrəylik tədbiri kimi tarixə düşməsinə nail olmaqdır.

Ötən aylarda "üçlük" dəfələrlə görüşüb COP29-la bağlı müxtəlif məsələləri müzakirə edib. Bu qəbildən olan görüşlərdən biri sentyabrın 27-də Nyu Yorkda baş tutub. BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində COP "üçlük" prezidentlərinin növbəti yüksəksəviyyəli iclası keçirilib. Ekologiya və təbii sərvətlər naziri, COP29-un təyin olunmuş prezidenti Muxtar Babayev tədbirdə çıxış edərək qlobal iqlim dəyişikliklərinə qarşı mübarizədə birgə səylərin vacibliyini vurğulayıb. O, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) üçlük ölkələrinin əməkdaşlığını önə çəkərək qeyd edib ki, COP29 Bakı sammiti dünya ölkələri üçün kritik bir məqam olacaq: "Elmi nəticələr göstərir ki, hazırda dünya Paris Sazişinin hədəflərinə çatmaq üçün kifayət qədər sürətlə irəliləmir. Biz 1,5°C hədəfinin reallaşması üçün milli səviyyədə müəyyən edilən töhfələrin hədəflərini artırmalıyıq".

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 5 oktyabr (№ 218).- S.11.